"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
Tel.: (+994 12) 447 70 03 (04) Faks: (+994 12) 565 04 54
www.azerinsaat.com

PRES RELİZ

# "Azərinşaatservis" MMC "Bakı dairəvi yolu"nu Bakı-Quba-Rusiya sərhədi avtomobil yoluna birləşdirən körpünün tikintisinə başlayıb.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2009/06/01*

"Azərinşaatservis" MMC "Bakı dairəvi yolu"nun tikintisi layihəsi çərçivəsində Bakı dairəvi yolunu Bakı-Quba-Rusiya avtomobil yoluna birləşdirəcək olan "Körpü-1" layihəsinin icrasına başlayıb.

Bakı dairəvi yolunu Bakı-Quba-Rusiya sərhədi avtomobil yoluna birləşdirəcək olan "Körpü-1" layihəsi üzrə inşa ediləcək tunel vasitəsiylə Ələt isiqamətindən Bakı dairəvi yolu ilə gələn avtomobil yolunun Bakı-Quba-Rusiya avtomobil yoluna və Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal kompleksinə birləşdirilməsi nəzərdə tutulur. Avtomobillərin sıx hərəkət etdiyi Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunun 6-ci kilometrində yolun altından keçməklə inşa ediləcək olan tunelin hazırlanması istiqamətində işlər sürətlə davam etdirilməkdədir. Hal-hazırda layihə üzrə sıvay işləri görülməkdədir. Bununla yanaşı tikinti işləri ilə əlaqədar olaraq ərazidən keçən kommunikasiya xətlərinin istiqaməti müvəqqəti olaraq dəyişdirilmişdir.

Tikinti işlərinə görə Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda avtomobillərin hərəkəti BDYP-nin N:15/4244 razılıq məktubuna uyğun olaraq qismən məhdudlaşdırılmış və məktubda tələb olunan aşağıdakı şərtlər yerinə yetirilmişdir:
-hərəkət üçün açılmış Yeni Yasamal-"Qurd Qapısı" yolunda nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün şərait yaradılması;
-günün qaranlıq vaxtlarında tikinti işləri aparılan sahələrin işıqlandırılmasının təmin olunması;
-yük avtomobillərinin Sumqayıt istiqamətindən Bakı şəhərinə girişinin Yeni Yasamal-"Qurd Qapısı" yolu vasitəsi ilə müvafiq yol nişanları quraşdırılmaqla təşkil olunması.

BDYP-nin yuxarıda sadalanan tələblərinə uyğun olaraq həyata keçirilən tədbirlər nəticəsində tunelin birinci hissəsinin tikintisi üçün Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda Sumqayıt-Bakı istiqamətində avtomobillərin hərəkəti dayandırılmış, bu istiqamətdə hərəkət edən yük maşınlarının hərəkəti Yasamal rayonu ərazisindən keçən Xiyabani küçəsi vasitəsiylə Mətbuat prospektinə və Badamdar qəsəbəsinə istiqamətləndirlmişdir. Minik avtomobillərinin hərəkəti isə əks tərəfdən gələn Bakı-Sumqayıt istiqamətindəki tunelə istiqamətləndirilmişdir. Hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün əks istiqamətdə hərəkət edən avtomobillərin hərəkət yolu ortaya bareyer yerləşdirməklə ayrılmışdır. 200 metr uzanan bu istiqamətləndirmə daha sonra yenidən Sumqayıt-Bakı tunelinə bağalanır.

Bakı-Quba-Rusiya sərhədi avtomobil yolunda hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədiylə bütün təhlükəsizlik tədbirləri görülmüş, lazımi yol nişanları və inaformativ lövhələr, xəbərdaredici təhlükəsizlik lövhələri yerləşdirilmişdir. İş sahəsində təmir-tikinti işlərinin davam etmə müddətini əks etdirən informativ lövhə yerləşdrilmişdir. Qazılmış hissədə təhlükəsizliyin təmin edilməsi üçün bütün tədbirlər görülmüş, günün qaranlıq vaxtlarında tikinti işləri aparılan sahələrin işıqlandırılması təmin edilmişdir.

"Azərinşaatservis" MMC-nin "Bakı dairəvi şosse yolu"nun tikintisi layihəsi çərçivəsində "Körpü-1" layihəsi üzrə həyata keçirdiyi tikinti işlərinin 3 ay müddətinə tamamlanması nəzərdə tutulur.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində liderlik iddiasında olan bir şirkətdir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**